*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 11 sentyabr 2019-cu il № 70 (2387) | Qiyməti 30 qəpik

## “TurAz Qartalı-2019” təlimləri davam edir



*Müasir geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət, hərbi və digər sahələr üzrə aidiyyati qurumların rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamış və bütün sahələrdə əlaqələr uğurla inkişaf edərək ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəyə qalxmasına səbəb olmuşdur.*

Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Bu əlaqələrin arasında hərbi sahədə əməkdaşlıq da çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlıq yalnız Azərbaycan Silahlı Qüvvələrinin gücləndirilməsi baxımından deyil, eyni zamanda, bölgədə sülh və təhlükəsizliyin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Türkiyənin hərbi təhsil sahəsində ən sıx əməkdaşlığının olduğu və Türkiyə Silahlı Qüvvələri tərəfindən təhsil dəstəyinin təmin edildiyi ölkələr arasında ön sıradadır.

Eyni zamanda Azərbaycan Ordusunun şəxsi heyəti Türkiyənin keçirdiyi hərbi təlimlərdə müşahidəçi qismində dəvət olunur, həmçinin iki ölkə arasında ikitərəfli əsasda xüsusi təlimlər də icra edilir. Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin iştirakı ilə bu il Azərbaycanda keçirilən "TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimləri buna misaldır.

Azərbaycan Müdafiə Nazirliyindən verilən açıqlamaya görə, Türkiyə ilə Azərbaycan arasında illik hərbi əməkdaşlıq planına əsasən, iki qardaş dövlətin Hərbi Hava Qüvvələrinin iştirakı ilə Azərbaycanda "TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimləri keçirilir.

Təlimlərdə Azərbaycan Hərbi Hava Qüvvələri, Türkiyə Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Quru Qoşunlarının aviasiya vasitələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqlar yerinə yetirilir. Sentyabrın 16-dək davam edəcək "TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimlərinin planına uyğun olaraq Azərbaycan və Türkiyənin hərbi aviasiya vasitələrinin uçuşları bu gün də davam edir. Təlim iştirakçıları qarşıya qoyulmuş döyüş tapşırıqlarını icra edirlər.

Bütün bunlar onu göstərir ki, ölkələrimiz arasında hərbi əməkdaşlıq ikitərəfli əsasda, təlimlər və NATO tərəfindən həyata keçirilən sülhməramlı əməliyyatlar çərçivəsində aparılır, dostluq və qardaşlıq münasibətləri üzərində qurulan strateji tərəfdaşlığımız daim inkişaf edir.

**"Azərbaycan Ordusu"**



Azərbaycan Ordusu qarşıya qoyulan istənilən hərbi vəzifəni yerinə yetirməyə hazırdır

2-ci səhifədə



“Təlimləri yüksək səviyyədə başa çatdırdıq”

3-cü səhifədə



Milli Qəhrəmanın xatirəsi anıldı

7-ci səhifədə



Texnikalarımız daim səfərə hazırdır

8-ci səhifədə

# Azərbaycan Ordusu qarşıya qoyulan istənilən hərbi vəzifəni yerinə yetirməyə hazırdır

*Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə "N" hərbi hissəsində əsgər və zabitlərlə görüş keçirilib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, görüşdə Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini - icra katibi Əli Əhmədov, Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Tahir Rzayev, Rauf Əliyev, Ağcabədi və Laçın rayon İcra hakimiyyətlərinin başçıları, ictimaiyyət nümayəndələri iştirak ediblər.*



Əsgər və zabitlər qarşısında çıxış edən Baş nazirin müavini Əli Əhmədov Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu fəaliyyətdən, Silahlı Qüvvələrə göstərilən diqqət və qayğıdan söz açıb. Bildirib ki, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan dünyanın ən güclü ordularından birinə çevrilib.

"Ordumuzun gücü təkcə onun malik olduğu silahlarda, hərbi sursatlarda deyil. Ordumuzun daha möhtəşəm güc mənbəyi əsgərlərimizin qəhrəmanlığında, döyüşlərdə göstərdiyi igidliyindədir. Yüksək döyüş ruhunda olmasındadır. Azərbaycan xalqına, dövlətinə dərindən inanmasındadır. Biz ordumuzla qürur duyur, fəxr edirik. Əminik ki, Silahlı Qüvvələrimiz Vətənimizin müstəqilliyinin və dövlətçiliyimizin keşiyində əzmlə dayanıb. Azərbaycan Ordusu qarşıya qoyulan istənilən hərbi vəzifəni yerinə yetirməyə hazırdır. Biz torpaqlarımızın işğaldan azad etmək vəzifəsini dövlətimizin, xalqımızın və ordumuzun iradəsini birləşdirərək yerinə yetirməyə nail olacağıq", - deyə Ə.Əhmədov söyləyib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesindən də bəhs edən Baş nazirin müavini deyib: "Azərbaycan münaqişənin qan tökülmədən həll olunmasına tərəfdar olmasını bəyan edir və danışıqlar prosesi aparılmaqdadır. Doğrudur, danışıqlar prosesinin gedişi bizi qane etmir. Biz dəfələrlə bununla bağlı mövqeyimizi ən yüksək səviyyədə ifadə etmişik. Amma danışıqlar prosesinin tamamilə sona çatdığını düşünmürük. Apardığımız siyasət ondan ibarətdir ki, qan tökülmədən, itkilərə yol vermədən Azərbaycanın işğal edilmiş torpaqlarının azad edilməsini təmin edək. Azərbaycan tərəfinin qoyduğu yeganə şərt odur ki, işğal olunmuş bütün torpaqlar qeyd-şərtsiz azad edilməlidir. Çünki bu torpaqlar Azərbaycanın torpaqlarıdır. Bütün dünya bu torpaqların Azərbaycan ərazisi olduğunu qəbul edir. Bütün hüquqlar, beynəlxalq normalar Azərbaycanın haqlı mövqeyini nümayiş etdirir. Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi ucbatından, hələ ki, danışıqlar prosesi bizim istədiyimiz nəticəyə gətirib çıxarmayıb. Əgər danışıqlar prosesi biz istədiyimiz nəticəni verməsə, pozulmuş ədalət bərpa olunmasa, Azərbaycanın torpaqları geri qayıtmasa, biz məsələni ordunun gücü hesabına həll edəcəyik. Bizim hər birimizin bir müqəddəs vəzifəsi var - işğal altında olan torpaqlarımızın azad edilməsi, məcburi köçkünlərin doğma yurdlarına qayıtması, ədalətin bərpa olması".



General-mayor Mayis Bərxudarov qeyd edib ki, Silahlı Qüvvələrə göstərilən diqqət və qayğı nəticəsində Azərbaycan Ordusu dünyanın ən güclü ordularından birinə çevrilib. "Silahlı Qüvvələrin təminatı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək olması onu deməyə əsas verir ki, ordumuz düşməni hər an məhv etməyə qadirdir, buna hazırdır."

Sonra YAP sədrinin müavini - icra katibi Əli Əhmədov və digər qonaqlar hərbi hissənin ərazisində yerləşən əsgər yataqxanası, məişət otağı, yeməkxana, hamam, əşya anbarı və digər xidməti otaqlara baxış keçirib, şəxsi heyətin həyat və məişət şəraiti ilə yaxından tanış olub, əsgərlərlə birgə nahar ediblər.

Hərbi hissəyə ideoloji və bədii kitablar hədiyyə olunub. Əsgər və zabitlər üçün konsert proqramı təşkil edilib.

Qeyd edək ki, həmin gün Ağcabədi rayon Bayraq Muzeyində Yeni Azərbaycan Partiyası Ağdam, Ağcabədi, Bərdə, Tərtər, Laçın rayon təşkilatlarının və Ərazi İlk Partiya Təşkilatları sədrlərinin iştirakı ilə zona müşavirəsi keçirilib.

## Media nümayəndələri "TurAz Qartalı-2019" təlimlərini izləyiblər

"TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimlərinin kütləvi informasiya vasitələrində işıqlandırılması məqsədilə yerli və xarici media nümayəndələrinin sentyabrın 10-da təlim keçirilən əraziyə səfəri təşkil edilib.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimdə iştirak edən şəxsi heyət və hərbi aviasiya vasitələri ilə tanış olan jurnalistlər uçuşları izləyib və onları maraqlandıran suallar cavablandırılıb.

## "Ermənistanın baş nazirinin Dağlıq Qarabağla bağlı səsləndirdiyi bəyanat danışıqlar prosesinin gedişinə zərbə vurur"

Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ ilə bağlı səsləndirdiyi bəyanat münaqişənin nizamlanmasına və danışıqlar prosesinin gedişinə zərbə vurur.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında ATƏT PA-nın sədri Giorgi Tsereteli söyləyib.

ATƏT PA-nın sədri deyib: "Düşünürəm ki, münaqişənin həllinə nail olmaq məqsədi daşımayan və ölkələr arasındakı müzakirələrə töhfə verməkdən uzaq olan bu cür bəyanatların səsləndirilməsi hər zaman sülh prosesinə zərbə vurur. ATƏT məkanında, Cənubi Qafqazda mövcud olan Dağlıq Qarabağ münaqişəsi bütün dünyanın, eləcə də bizim təşkilatımızın diqqət mərkəzindədir. Biz daha çox konstruktiv bəyanatlar eşitmək istəyirik və konkret addımlar gözləyirik".

Onun sözlərinə görə, münaqişənin ədalətli həllinə nail olmaq üçün fikir ayrılıqlarını və fərqli düşüncələri bir araya gətirib ortaq dil tapmaq lazımdır. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə yalnız beynəlxalq hüquq çərçivəsində nail olmaq mümkündür.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***9 sentyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Nəmirli, Şuraabad, Qaraqaşlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***10 sentyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

# Hərbi qulluqçularımız "Saber Junction-19" təlimində iştirak edəcək

*Azərbaycan Ordusunun hərbi qulluqçuları "Hohenfels" təlim mərkəzində keçiriləcək "Saber Junction-19" çoxmillətli briqada taktiki təlimində iştirak etmək üçün Almaniya Federativ Respublikasına yola düşüblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Amerika Birləşmiş Ştatları Avropa Komandanlığının (EUCOM) təşkilatçılığı ilə keçiriləcək təlimin əsas məqsədi NATO və tərəfdaş ölkələr arasında əməliyyat uyarlılığının və bölmələrin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, eləcə də hərbi qulluqçuların fərdi bacarıqlarının təkmilləşdirilməsidir.

Azərbaycan Ordusunun nümayəndələrinin də qatıldığı təlimə NATO-nun üzv və tərəfdaş ölkələrin ordularından 2000-dək hərbi qulluqçu cəlb olunub.

Təlim sentyabrın 30-dək davam edəcək.

## "Ermənistan hökumətinin mövqeyi məzmunlu danışıqlar aparmağa imkan vermir"

*Ermənistan hökumətinin mövqeyi məzmunlu danışıqlar aparmağa imkan vermir. Bu mövqe Azərbaycan üçün tamamilə qəbuledilməzdir.*

Bu sözləri AZƏRTAC-a açıqlamasında Atlantik Şuranın siyasi şərhçisi, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, ATƏT-in Minsk qrupunun sabiq həmsədri Mətyu Brayzə söyləyib.

Siyasətçi Ermənistanın baş naziri Nikol Paşinyanın qəribə bəyanatlar verdiyini bildirib: "Onun bəyanatları bir-birinə ziddir. Gah deyir, Dağlıq Qarabağ müstəqildir, gah da deyir, Ermənistanın bir hissəsidir. Mən vasitəçi olsaydım, buna açıq şəkildə etiraz edib istefa verərdim. Bu mövqe ilə irəliləyiş əldə etmək mümkün deyil. Bu, ədalətli deyil".

# "Təlimləri yüksək səviyyədə başa çatdırdıq"

*Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimləri keçirildi. Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində və səhra şəraitində keçirilən, nəzəri və praktiki hissədən ibarət olan təlimdə üç ölkənin hərbi bölmələri və aidiyyəti dövlət qurumlarının nümayəndələri regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqları icra etdilər.*



Qeyd edək ki, "Eternity" təlimlərinin rotasiya qaydasında hər il bir ölkədə keçirilməsi Silahlı Qüvvələr arasında qarşılıqlı əməkdaşlığın təkmilləşdirilməsində və uzlaşmanın təmin edilməsində mühüm rol oynayır. Bu təlimlər hər üç ölkənin ərazisindən keçən beynəlxalq əhəmiyyətli birgə strateji layihələrin təhlükəsizliyinin təmin olunması üzrə iştirakçıların biliklərinin artırılmasında, onların əməliyyat, təlim və analitik bacarıqlarının inkişaf etdirilməsində, həmçinin mühafizə fəaliyyətini həyata keçirən bölmələr arasında qarşılıqlı uzlaşmanın təkmilləşdirilməsində böyük əhəmiyyət kəsb edir. Belə ki, təlim müddətində ssenariyə uyğun olaraq böhran vəziyyətində Bakı-Tbilisi-Ceyhan neft ixrac və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri, o cümlədən Bakı-Tbilisi-Qars dəmiryol xəttinin təhlükəsizliyinin təmin olunması üzrə əməliyyatlar və bu istiqamətdə strateji əməkdaşlığın təmin olunması fəaliyyətləri icra olundu. Terror qruplarının ehtimal edilən təxribatlarının qarşısının alınması üzrə tədbirlər görüldü, qərargahlarda müvafiq qərarların qəbul edilməsi üzrə fəaliyyətlər kompüterlərdə icra olundu. Təlimlər ərazi və qərargah komponentləri üzrə həyata keçirildi. İştirakçılar çoxmillətli qərargahın planlaşdırılması prosedurları, milli taborların idarə olunması, onlara nəzarətin təşkili üzrə bilik və təcrübələrini nümayiş etdirdilər. Bölmələrə verilən tapşırıqlar nəticəsində qarşılıqlı fəaliyyətlər həm mərkəzi qərargahlarda, həm də çöl şəraitində praktiki olaraq fasiləsiz və bacarıqla yerinə yetirildi.

Keçirilən təlim haqqında düşüncələrini bölüşən hər üç ölkənin nümayəndəsi "Eternity-2019" təlimlərinin uğurla keçdiyini bildirdilər. Polkovnik-leytenant Rasim İbrahimov qeyd etdi ki, üçtərəfli formatda keçirilən təlimin məqsədi strateji layihələrin təhlükəsizliyinin təmin edilməsi və şəxsi heyətin birgə fəaliyyətinin uzlaşmasından ibarətdir. "Əvvəlcə qonaqlarımızı Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından salamlayır, xoş arzularını çatdırıram. Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli strateji əməkdaşlıq regionda sabitlik amilinə çevrilib. Avropa və bütövlükdə qlobal enerji təhlükəsizliyinə töhfə verən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft ixrac və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri kimi iki uğurlu enerji infrastruktur layihəsi Avropa üçün yeni təhlükəsiz enerji mənbəyinin əsasını qoydu. Adı gedən neft və qaz əsas ixrac boru kəmərlərinin və strateji əhəmiyyətli Bakı-Tbilisi-Qars dəmiryol xəttinin təhlükəsizliyinin qorunması hər üç dövlətin milli təhlükəsizliyinin təmin edilməsinin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrilib. Bu baxımdan "Eternity" çoxmillətli kompüter dəstəkli komanda-qərargah təlimlərinin keçirilməsi xüsusi əhəmiyyət və aktuallıq kəsb edir. "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimləri uğurla başa çatdı və qarşıya qoyulmuş məqsədlərə nail olundu."

Gürcüstan Respublikasının nümayəndəsi polkovnik-leytenant Davit Gorgadze təlimlərin gedişindən və təşkilati işlərdən razılığını bildirdi. "Vurğulamaq istəyirəm ki, bu cür təlimlər ordular arasında dostluğun gücləndirilməsində və əməkdaşlığın daha da yüksək səviyyəyə çatdırılmasında böyük təsir gücünə malikdir. Təhlükəsizliyin təmin olunması regionda iqtisadi inkişaf üçün əsas faktordur. Belə təlimlər əməkdaşlığın inkişafına böyük təsir göstərir.



Bu mühüm əhəmiyyətli təlimlərdə iştirakçı olmaq sevindiricidir. Təlimlərin yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Azərbaycanın Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığımızı bildiririk. İnanıram ki, hər il keçirilən bu təlimlərdə qazandığımız təcrübə gələcək fəaliyyətimizdə yardımçı olacaq."

Türkiyə Cümhuriyyətinin nümayəndəsi polkovnik Naci Öztürk də öz düşüncələrini bölüşdü və qardaş ölkədə olmaqdan məmnunluğunu bildirdi. "Bu təlimləri 2001-ci ildən birlikdə həyata keçiririk. Regionda strateji əməkdaşlıq və sabitliyin təmin olunması baxımından son illər bu təlim daha da önəm qazanıb. Təlimləri hər il daha sağlıqlı, planlı və uğurlu keçirmək üçün birlikdə fəaliyyətimizi möhkəmləndiririk. "Eternity-2019" təlimlərini yüksək səviyyədə başa çatdırdıq. Qarşıya qoyulan bütün tapşırıqlar uğurla icra olundu. Həm çoxmillətli qərargahın planlaşdırılması prosedurları, həm də milli taborların idarə olunması və onlara nəzarətin təşkili işləri bacarıqla yerinə yetirildi. Həmçinin fəaliyyətlərin çöl şəraitində praktiki icrası zamanı da şəxsi heyət yüksək bacarıq nümayiş etdirdi. Bir daha şahidi olduq ki, hər üç ölkənin hərbçiləri birgə fəaliyyətin uzlaşmasında artıq böyük təcrübəyə malikdirlər".

Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə keçirilən "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimlərinin bağlanış mərasimində hər üç ölkə nümayəndələri bir-birilərinə hədiyyələr təqdim etdilər.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# "Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsində əsl əsgər həyatı yaşanır

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, "ASAN Xidmət" və "ASAN Könüllüləri" təşkilatının birgə layihəsi olan 2019-cu ilin ikinci "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsində növbəti gün gənc vətənpərvərlər Horadiz, Cocuq Mərcanlı, Lələtəpə marşrutu üzrə yürüşə çıxıblar.*



Respublikamızın ən gənc, müasir şəhərlərindən biri olan Horadiz şəhərinin mərkəzində Heydər Əliyev parkında Ulu Öndərin abidəsi ziyarət olunaraq qarşısına çələng qoyulub, Ümummilli Liderin xatirəsi ehtiramla yad edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, abidə qarşısında keçirilən tədbirdə Prezidentin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimi, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Horadiz şəhərinin tarixinə ekskursiya edərək bildirib ki, 1993-cü ilin oktyabrında tam işğala məruz qalan Füzuli rayonunun 22 yaşayış məntəqəsi, o cümlədən Horadiz qəsəbəsi ulu öndər Heydər Əliyevin qətiyyəti, böyük sərkərdəlik məharəti, döyüş bölgəsinə gedərək orduda güclü ruh yüksəkliyi yaratması nəticəsində erməni işğalından azad edilib. Dağıdılmış kəndlər, sosial obyektlər bərpa olunub. Füzulililər doğma yurd yerlərinə qayıdıblar. Nəzərə çatdırılıb ki, 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Füzuli rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilərək, Horadiz qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Horadiz qəsəbəsinə şəhər statusu verilməklə, müasir sosial infrastruktur layihələrinin reallaşdırılmasına başlanılıb, "kül altından baş qaldıran şəhər"ə yeni həyat bəxş edib. Ölkə başçısı son illərdə Horadiz şəhərinə altı dəfə səfər edib. Rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında bir neçə sərəncam imzalayıb. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramının icrası nəticəsində Horadiz müasir, inkişaf etmiş şəhərə çevrilib.



Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev gənc vətənpərvərləri salamlayaraq bu gün də Horadiz şəhərinin etibarlı şəkildə qorunmasının hər bir Füzuli sakininin əmin-amanlıq içində qurub-yaratdığını, əkib-becərdiyini, firavan yaşadığını və digər torpaqlarımızın da işğaldan azad edilməsi uğrunda Ali Baş Komandanın əmrlərinə hər an hazır olduqlarını vurğulayıb. Alı Alıyev dövlətimizin başçısı İlham Əliyevin "Biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətlənən Azərbaycan Ordusunu, ulu öndər Heydər Əliyevin siyasətini görürük" kəlamlarını xatırlamaqla ordu quruculuğunda, ölkənin inkişafında qazanılan uğurlardan söhbət açıb. Heydər Əliyevin siyasi kursunun cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirildiyini qeyd edib.

General-mayor Mayis Bərxudarov bölgənin müdafiəsinin etibarlı təşkili, ordu ilə xalqın bir amal uğrunda birləşdiyi barədə danışıb. Azərbaycan Ordusunun bölgədəki hərbi hissələrinin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun, vətənpərvərlik hissinin yüksəlməsində Füzuli rayon İcra Hakimiyyəti rəhbərliyinin və ictimaiyyətin köməyini xüsusi qeyd edib.

Lələtəpə uğrunda döyüşlərdə göstərdiyi şəxsi igidliyə və düşmənə canlı, eyni zamanda texnika sarıdan xeyli itki verən, Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunan gizir Tahir Misirxanov, Horadiz qəsəbə sovetinin üzərindən Ermənistanın bayrağını endirərək Azərbaycanın üçrəngli bayrağını atəşlər altında ucaldan müharibə qazisi Şakir Bayramov çıxış edərək, bu gün də döyüşlərə hazır olduqlarını bəyan ediblər.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev müharibə şəraitində yaşayan bir ölkənin hər bir vətəndaşının qələbə əhval-ruhiyyəsi ilə yaşadığını dilə gətirib. Bu gün hərbi libas geyinərək gənc vətənpərvərlərlə cəbhəyanı bölgəyə gəlməsini, qəhrəman oğullarla bir sırada dayanmasını, onların hünər və rəşadətləri ilə fəxr etdiyini bildirib.

"ASAN Könüllüləri" təşkilatının sədri Səbinə Cabarova, Qarabağ müharibəsi iştirakçısı Rüxsarə Qurbanovanın qızı Odlar Yurdu Universitetinin tələbəsi Rəqsanə Qurbanova, iki ilə yaxın erməni əsirliyində hər bir işgəncə və məşəqqətlərə mərdliklə sinə gərən igid kəşfiyyatçı Aqil Əhmədov çıxış edərək, "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsinin üzvləri ilə bu gün bir yerdə olduqlarından qürur hissi keçirdiklərini qeyd ediblər.

Yürüş iştirakçıları "Horadiz alayı" mahnısının sədaları altında Horadiz şəhərinin görməli yerlərinə ekskursiyaya çıxıblar. Yaşıllıqlara və gül-çiçəyə qərq olmuş şəhərin gözəllikləri gənc vətənpərvərlərdə xoş təəssüratlar oyadıb. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən yolda Aprel şəhidlərinin xatirəsinə ucaldılmış xatirə abidəsi ziyarət olunub, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Polkovnik Elşad Əbilov 2016-cı ilin Aprel döyüşlərindən sonra təmamilə dağıdılmış Cocuq Mərcanlı kəndinin yenidən qurulduğunu, böyük qayıdışın ilk köçünün məhz bu yaşayış məntəqəsinə qayıtdığını fəxarətlə qeyd edib.

Gənc vətənpərvərlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2017-ci ildə inşa edilən, Şuşa məscidinin oxşarı olan Cocuq Mərcanlı kənd məscidini ziyarət ediblər.

Müharibə qazisi, ehtiyatda olan kapitan Elvin Hüseynov Cocuq Mərcanlı kəndi ərazisində qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən ağır yaralandığını və göstərdiyi rəşadətə görə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunduğunu yada salıb.

Əslən Cocuq Mərcanlıdan olsa da Bakı şəhərində dünyaya gələn və bu gün ilk dəfə ata ocağına, doğma Cocuq Mərcanlıya qayıdan tələbə Fidan Hüseynzadənin çıxışı tədbir iştirakçılarında duyğulu anlar yaşadıb.

Düşərgə iştirakçıları qruplar şəklində Lələtəpə zirvəsinə qalxaraq Azərbaycan əsgərinin azad etdiyi strateji zirvədə Lələtəpə fatehləri ilə görüşüb, onların xidmət şəraiti ilə tanış olub, qəhrəmanların xatirələrini dinləyib, düşmən tərəfini müşahidə edib, fəxri döyüş növbəsində dayanıblar.

Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Emilya Bayramova gənc vətənpərvərlər adından bu möhtəşəm layihənin icraçılarına, təşkilatçılarına minnətdarlıq edib, Lələtəpə zirvəsi fatehlərinin qəhrəmanlıq ənənələrini davam etdirən döyüşçülərin yeni-yeni qələbə müjdələri ilə xalqımızı sevindirəcəklərinə əmin olduğunu bildirib.

Milli Qəhrəman polkovnik Şükür Həmidovun "Hər birimiz Qarabağlıyıq, hər birimiz əsgərik!" sözlərini təkrarlayan gənc vətənpərvərlər "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!", - deyərək zirvədən ayrılıblar.

Füzuli rayon İcra Hakimiyyətinin başçısı adından verilən ziyafətdən sonra iştirakçılar təlim mərkəzinə yollanıblar.

Burada Milli Qəhrəman Şükür Həmidovun rəhbərliyi altında peşəkar zabitlərdən polkovnik Nemət Məmmədov, polkovnik Etibar Əhmədov, polkovnik-leytenant Sədi Musayev, polkovnik-leytenant Rüstəm Bədəlov, leytenantlar Coşqun Xəlilov, Fazil Səfərov və başqaları atışın əsasları, üsul və qaydaları, atəş hazırlığı üzrə normativlərin yerinə yetirilməsi, əl qumbaralarının məsafəyə və dəqiqliklə atılması üzrə tədris nöqtələrində məşqlər aparıb, bu məşğələlər tam mənimsənildikdən sonra ikinci təlim atış çalışmasının praktiki yerinə yetirilməsi üzrə yarışlar təşkil edilib.

Milli Qəhrəman Şükür Həmidov gənc vətənpərvərlərin normativləri yerinə yetirməsini, gözübağlı silahın sökülüb-yığılmasını, əl qumbaralarının təyin olunmuş məsafəyə dəqiqliklə səngərə salınmasını yüksək dəyərləndirib.

Gənc vətənpərvərlər düşərgənin ikinci gününü fiziki hazırlıq üzrə məqbulların qəbul edilməsi üzrə yarışlarla başa vurublar.

* * *

"Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsində üçüncü gün üçün nəzərdə tutulan tədbirlər gənc vətənpərvərlərin fiziki hazırlığı üzrə məqbulların qəbul edilməsi ilə başlanıb. Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi təşviqat dəstəsinin səsləndirdiyi "Biz gəlirik, Qarabağ!" vətənpərvərlik marşının sədaları altında düşərgə iştirakçıları Təlim mərkəzinə yola düşüblər.

Son günlər intensivləşən güclü yağışların yaratdığı fəsadların, dağıntıların hərbçi mühəndislər tərəfindən dərhal aradan qaldırılması nəticəsində şəxsi heyət maneəsiz və vaxtında Təlim mərkəzinə çatıblar.

Təlim mərkəzində Azərbaycanın Milli Qəhrəmanı polkovnik Şükür Həmidovun rəhbərlik etdiyi peşəkar hərbçilər qrupu gənc vətənpərvərləri qarşılayıb. Milli Qəhrəman Şükür Həmidov dünya hərb tarixində Azərbaycan tankçılarının yeri barədə danışıb. Böyük Vətən müharibəsinin iştirakçısı, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun davamçıları olan Azərbaycan Ordusu tankçılarının Qarabağ müharibəsində göstərdikləri igidliklərdən, eləcə də "Beynəlxalq Ordu Oyunları" çərçivəsində "Tank Biatlonu"nda qazandığı uğurlardan söhbət açıb, Lələtəpə zirvəsinin alınmasında tankçıların müstəsna xidmətlərini qeyd edib.

Tankların sürülmə məkanında (tankadrom) zirehli texnikaların sürülmə əsasları, üsul və qaydaları, sürmə zamanı yerinə yetiriləcək tapşırıqlar, şəxsi heyətin qiymətləndirilməsi, marşrut boyu maneələri dəfetmə qaydaları izah olunub. Bölmə tərkibində tankların sürülməsi üzrə nümunəvi məşğələlər aparılıb. Tank atış sahəsində praktiki atışın yerinə yetirilməsi nümayiş olunub. Silahların taktiki-texniki xüsusiyyətləri, atışın əsasları, çevik şəkildə atəş sahəsində kəşf edilmiş hədəflərin dərhal məhvetmə qaydaları, atəşin idarə edilməsi üsulları, bölmənin qiymətləndirilmə qaydaları bir daha nəzərə çatdırılıb.



Bölük tərkibində atıcı silahlardan praktiki atışın yerinə yetirilməsi, eyni zamanda, tədris nöqtələrində atəş hazırlığı üzrə normativlərin rəhbərlik tərəfindən öyrədilməsi və icrası təmin olunub.

Azərbaycan Ordusu üzrə keçirilən "Ən yaxşı tank bölüyü" adına layiq görülmüş bölüyün əsgər və zabitləri gənc vətənpərvərləri öz nümunəvi çıxışları ilə heyrətləndiriblər. Təlim mərkəzində əsl döyüş əhval-ruhiyyəsi yaşanıb.

Mayor Elvin Həsənov, leytenant Elvin Əlimov, gizir Ramin Vəliyev, kiçik çavuş Ceyhun Rüstəmov və başqaları gənclərin suallarını cavablandırıblar.

Fasilə zamanı Qarabağ qazisi, ehtiyatda olan baş leytenant Nəbi Şükürovla görüş olub. İgid kəşfiyyatçının xüsusi tapşırığı yerinə yetirərkən qarşılaşdığı dəhşətlər, onun bütün maneələri mərdliklə dəf etməsi, ekstremal vəziyyətlərdən uğurla çıxması, ağır yaralanarkən yoldaşları tərəfindən atəşlər altında təcili təxliyə edilərək helikopterlə paytaxta aparılması və hərbi həkimlərimizin səyi nəticəsində yenidən həyata qaytarılması barədə söhbətlər, xatirələr hamıda böyük maraq oyadıb.

**(Ardı 5-ci səhifədə)**

# “Hərbiyyə-2019” hərbi vətənpərvərlik düşərgəsində əsl əsgər həyatı yaşanır




(Əvvəli 4-cü səhifədə)

Yeni nəsil silahları, döyüş texnikaları, optik cihazlar və digər hərbi təyinatlı avadanlıqların nümayiş olunduğu sərgidə 100-dən çox döyüş texnikaları, pilotsuz uçuş aparatları, hava hücumundan müdafiə vasitələri, artilleriya silah və texnikaları, mühəndis silahlandırma vasitələri, rabitə avadanlıqları, tibb təxliyə zirehli avtomobilləri, silah və cihazları nümayiş olunub.

Beynəlxalq Ordu Oyunlarından yenicə qayıtmış "Tank biatlonu"nun iştirakçıları olan Kamran Bayramov, Məftun İbrahimov, Umar Omarovun gənc vətənpərvərlərlə görüşü unudulmaz hadisəyə çevrilib.

Düşərgə iştirakçıları Haramı düzündə inşa edilən hərbi şəhərciklə tanış olub, hərbi xidmət üçün yaradılan ən müasir şəraiti yüksək dəyərləndiriblər.

Gənc vətənpərvərlər əsgərlərlə birlikdə nahar etdikdən sonra atəş hazırlığı məşğələləri keçirilib. Təhlükəsizlik qaydaları çatdırılıb, atıcı silahların natamam sökülüb-yığılması yarışları keçirilib.

Xocavənd rayon İcra Hakimiyyətinin rəhbərliyi və ictimaiyyət nümayəndələri ilə görüşü açan Prezidentin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimi, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani rayonun tarixi, erməni təcavüzkarları ilə mübarizədə şəhidlik zirvəsinə ucalan qəhrəmanları haqqında söz açıb və rayon əhalisinin bu gün də doğma yurd yerlərinə qayıdacaqları günü səbirsizliklə gözlədiklərini vurğulayıb.

Abdulla Qurbani xocavəndlilərin bölgədəki hərbi hissələrin şəxsi heyətləri ilə daim əlaqə saxladıqlarını, burada ordu ilə xalqın sağlam mənəvi birliyinin yarandığını qeyd edərək deyib ki, ordu ilə xalqın birliyi həm ordunun gücünü artırır, həm də xalqı, dövləti daha da qüdrətli edir.

"Xocavənd şəhidləri" abidəsi ziyarət olunub, qarşısına qərənfillər düzülüb, şəhidlərin xatirəsi ehtiramla yad edilib və gənc vətənpərvərlər, eləcə də ön səngərlərdən gələn əsgərlər Vətən uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalanların qısasını alacaqlarına and içiblər.

Xatirə mitinqində Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Azərbaycanın Milli Qəhrəmanı Şükür Həmidov, polkovnik Elşad Əbilov, şəhid Sənan Quliyevin babası Əliqəmə Quliyev və xocavəndli gənclərdən Ləman Əliyeva, Günay Fərəcova, Muradxan Məhərrəmov, Səma Şükürova, gənc vətənpərvərlər adından Böyükxanım Babayeva və başqaları çıxış edərək Ali Baş Komandan cənab İlham Əliyevə əmrlərinə hər an hazır olduqlarını bildirib və düşərgənin təşkilində Prezidentin yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və Müdafiə Nazirliyinin təşəbbüslərini yüksək qiymətləndiriblər.

"Hər əmrinə hazırıq, cənab Ali Baş Komandan!" marşının sədaları altında gənc vətənpərvərlər xocavəndlilərlə görüş tədbirindən xoş təəssüratlarla ayrılıblar.

Şam yeməyindən sonra əl qumbaralarının dəqiqliklə atılması üzrə komandalar yarışıb.

Havanın tez-tez dəyişməsi, yağış yağmasına baxmayaraq gün ərzində keçirilən yarış və müsabiqələrdə bütün komandalar qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gələrək yüksək nəticələr əldə ediblər.

Fərdi yarışlarda Hümbət Qafarlı (Bakı Mühəndislik Universiteti), Meyfalı Qaziyev (Azərbaycan Neft Akademiyası), Yaşar Əliyev (Bakı Mühəndislik İnstitutu), Əli Qurbanov (Mingəçevir regional "ASAN xidmət" mərkəzi), Babakişi Babayev (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti), Yaşar Qasımov (Mingəçevir Dövlət Universiteti), Əli Qəribov (Azərbaycan Dövlət İqtisad Universiteti) və başqaları xüsusilə fərqləniblər.



Günün qalibləri sırasında Quba rayonundan olan "Asan" könüllüsü Rəşad Atakişiyevin (Azərbaycan Dövlət Texniki Universiteti) adı çəkiləndə alqış sədaları sıra meydanını bürüyüb. Polkovnik Abdulla Qurbani - "Qoy düşmənlər sevinməsinlər ki, Azərbaycanın peşəkar pilotu polkovnik-leytenant Rəşad Atakişiyev təlim-məşq uçuşu zamanı həlak olub. Xalqımızın yüzlərlə, minlərlə Rəşadları var", - deyə düşmənlərə qarşı qəzəb və nifrət hissini gizlətməyib.

"Hərbiyyə-2019" hərbi vətənpərvərlik düşərgəsinin iştirakçıları növbəti günə hazırlıq işlərinə başlayıblar.

* * *

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, "ASAN Xidmət" və "ASAN Könüllüləri" təşkilatının birgə layihəsi olan "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsində əsl əsgər həyatı yaşanır.

Günün nizam qaydalarına uyğun olaraq düşərgə sakinləri sübh tezdən yuxudan oyanır, idman edir, səhər yeməyi süfrəsində ən ləziz təamlardan dadır, sıra baxışı olur, günün proqramı elan edilir və komandalar günün qalibi olmaq əzmi ilə təlim və yarış meydanlarına tələsirlər. "Hərbiyyə-2019"-un dördüncü günü də gənc vətənpərvərlərin yaddaşından uzun müddət silinməyəcək.

Düşərgə sakinləri qarşısında çıxış edən Prezidentin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimi, Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Abdulla Qurbani onların fəallığını, nizam-intizamını, gündən-günə hərbi biliklərə daha böyük maraq göstərdiklərini, yarışlarda yüksək nəticələr əldə etdiklərini və hər şeydən öncə bu gün Azərbaycan gəncliyinin qarşısında Qarabağ problemi kimi böyük bir problemin olduğunu dərindən dərk etdiklərini və bu istiqamətdə fəallıq göstərdiklərini qeyd edib.

Taktiki təlim və nəzəri hərbi biliklərin öyrənilməsinə məsul zabit Azərbaycanın Milli Qəhrəmanı polkovnik Şükür Həmidov Heydər Əliyev ideyalarına, Vətənə, dövlətə, xalqa sadiq gənclərin yetişdirilməsi sayəsində uğurları yüksək qiymətləndirib. Polkovnik-leytenant Ceyhun Bağırov isə belə bir möhtəşəm hərbi vətənpərvərlik düşərgəsinin məhz onların hərbi hissələrində təşkilinin şəxsi heyətdə vətənpərvərlik hissinin, mənəvi-psixoloji hazırlığın, döyüş ruhunun daha da yüksəldiyinə dəlalət etdiyini bildirib.

İlk məşğələ başlamazdan öncə polkovnik-leytenant Aydın Şıxəliyev orduda mühəndis-istehkam xidmətinin zəruriliyi və müharibələrdə, qələbənin əldə olunmasında bu sahənin də vacibliyini vurğulayaraq deyib: "Bütün qoşunların hərəkətinin maneəsiz təmin olunması, irəliləməsi, maneələrin dəf edilməsi, ələ keçirilmiş mövqelərin möhkəmləndirilməsi, strateji əhəmiyyətli ərazi və obyektlərin minalardan və digər döyüş sursatlarından təmizlənməsi və yaxud dağıntıların hazırlanması, ərazilərin minalanması, bilavasitə mühəndis-istehkam bölmələrinin üzərinə düşən məsuliyyətli vəzifələrdir. Müharibələr tarixinə nəzər salsaq görərik ki, Azərbaycan oğulları digər sahələrdə olduğu kimi, bu sahədə də bir çox uğurlara imza atıblar. 1941-1945-ci illərin Böyük Vətən müharibəsində ilk istehkamçı, Sovet İttifaqı Qəhrəmanı adına məhz azərbaycanlı briqada komandiri Aslan Vəzirov layiq görülmüşdür. Neçə-neçə azərbaycanlı istehkamçı Qarabağ uğrunda gedən döyüşlərdə qarşılarına düşən vəzifələri layiqincə yerinə yetirmiş, Azərbaycanın Milli Qəhrəmanı fəxri adını almışlar. Bu gün istehkamçı hərbi qulluqçularımızdan şəhid Asif Məhərrəmov, Rafiq Alıcanov, Kərim Kərimov, Elşad Əhədov və başqalarının adları ehtiramla çəkilir. Aprel döyüşləri zamanı Lələtəpə zirvəsinin fəth edilməsində mühəndis-istehkamçıların



müstəsna xidmətlərini qeyd edən polkovnik-leytenant A.Şıxəliyev fəxrlə bildirib ki, bu gün də mühəndis-istehkamçılar üzərilərinə düşən tapşırıqları uğurla yerinə yetirirlər".

Yağışlı, yağmurlu hava şəraitində gənc vətənpərvərlər mühəndis silahlandırma vasitələri ilə ümumi tanışlıq üçün sıra meydanına toplaşaraq, burada peşəkar hərbçilərin mövzu ilə bağlı çıxışlarını dinləyib, minaəleyhinə keçidaçma sistemləri, tank və piyada əleyhinə minaların xüsusiyyətləri, partlayış üsulları, minaatan qurğular və istehkamçıların geyimləri, mühəndis alətləri, partlamayan əngəllər, mövqelərdə istifadə olunan metal səbətlər, təlim görmüş istehkamçı itlər barədə məlumat verilib.

Gənc vətənpərvərlər hərbi qulluqçular Sərxan Məmmədov, Emil Əmiraslanlı, Kənan Rzayev, Aqil Cumayev və başqalarının çıxış məruzələrini maraqla dinləyiblər. Sonra düşərgə iştirakçıları təlim sahəsinə yollanaraq orada praktiki olaraq icra olunan partlayışları aparan əsgərlərə qoşulub və bu işi birlikdə icra ediblər.

Od üsulu və elektrik üsulu ilə, tək-tək və bir neçə atımın partladılması, MTU-90 körpüquranı ilə maneələr üzərindən körpülərin qurulması praktiki olaraq nümayiş olunub.

Gənc vətənpərvərlər Cəbrayıl, Xocalı, Xocavənd, Qubadlı və Ağdərə komandalarının bayraqları altında rəmzi olaraq Şuşaya doğru irəliləyiblər.

Silahlanmada olan yeni nəsil rabitə vasitələrinin nümayişi də gənc vətənpərvərlərin marağına səbəb olub. Bu barədə polkovnik-leytenant Elman Şirəliyev məlumat verib. Nəzərə çatdırılıb ki, orduda rabitə - qoşunların fasiləsiz, davamlı, gizli və dayanıqlı idarə olunmasıdır. Bu gün Azərbaycan Ordusunda digər sahələrlə yanaşı, rabitə işinin daha da təkmilləşdirilməsi, ən müasir vasitələrlə təmin olunması, dünya ordularının rabitə sistemi təcrübəsindən bəhrələnməsi rəhbərlik tərəfindən daim diqqətdə saxlanılır. Silahlanmada olan yeni nəsil rabitə vasitələrimiz düşmənin taktiki fəaliyyətini daim nəzarətdə saxlayır, bununla da onların mənfur niyyətlərini öncədən anlayaraq müvafiq tədbirlər görür.

Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan rabitəçiləri istənilən döyüş əməliyyatlarında ümidləri doğrultmağa hazır və qadirdirlər. Gənc vətənpərvərlərə əldə və kürəkdə gəzdirilən qısa və ultraqısa dalğalı, görüntülü rabitə vasitələri nümayiş etdirilib, onları maraqlandıran suallar cavablandırılıb.

Nahardan sonra əl altındakı vasitələr ilə (balta, bıçaq) hədəflərə xətər yetirilməsi və zərərsizləşdirilməsi tapşırıqları əvvəlcə döyüşçülər, sonra isə gənc vətənpərvərlər tərəfindən icra olunub.

Tək əsgərin taktiki nəzarət zolağının keçilməsi üzrə nümunəvi məşğələ gənc vətənpərvərlərin Azərbaycan əsgərinə güvənini, inamını daha da artırıb. Onlar çətin və maneələrlə əhatə olunan taktiki nəzarət zolağını qət edərək irəliləyiblər.

Düşmən atəşləri altında döyüşçülərimizin mövqeyə yaxınlaşması və həmin mövqeləri ələ keçirməsi gənc vətənpərvərlər tərəfindən alqışlarla qarşılanıb. Taborun kiçik taktiki təlim meydanında əsl qələbə sevinci yaşanıb. Mərmilərin gurultusu, minaların partlayışı nəinki gənc vətənpərvərləri qorxutmayıb, hətta onların nümayəndələri də atəş altında mövqeyə doğru can atıblar.

Aprel döyüşlərinin iştirakçısı polkovnik-leytenant Allahverdi Cəbrayılov başda olmaqla tibb xidməti zabitləri və əsgərlər döyüş meydanında yaralılara ilk tibbi yardım göstərilməsi və yaralının döyüş meydanından təxliyə edilməsi mövzusunda nəzəri tövsiyələr verib, praktiki göstərişlər təqdim ediblər. Gənc vətənpərvərlər birlikdə bu işi icra ediblər.

Xocavənd rayon Tuğ kəndi uşaq musiqi məktəbi və Salakətin kənd orta məktəbinin şagirdlərinin iştirakı ilə gənc vətənpərvərlər və hərbi hissənin şəxsi heyəti üçün bədii proqram təşkil olunub.

Konsertdən sonra hər iki məktəbə Abdulla Qurbaninin "Azərbaycan-Türkiyə: Qardaşlığın təntənəsi" və "Sənə güvənirik, Vətən əsgəri!" kitab-albomları hədiyyə edilib.

Tədbirdə hərbi hissənin və Xocavənd rayon İcra Hakimiyyətinin rəhbərliyi də iştirak ediblər.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Müasir cəmiyyətdə dinin rolu və yeri. Azərbaycanda islami dəyərlərin bərpası. Azərbaycan Respublikası multikulturalizm nümunəsidir.

**Suallar:**
**1. Müasir cəmiyyətdə dinin rolu və yeri.**
**2. Azərbaycanda islami dəyərlərin bərpası.**
**3. Azərbaycan Respublikası multikulturalizm nümunəsidir.**

*Müasir cəmiyyətdə dinin rolu və yeri*

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən din dövlətdən, dövlət də dindən ayrıdır. Buna görə də dövlətin sosial, siyasi, iqtisadi və hüquqi fəaliyyətini müəyyən edən qanunlar qəbul edilərkən, dinin bu mövzudakı əmr və qadağalarına görə deyil, sosial ehtiyaclara görə edilir. Dövlət quruluşunun əsası olan dünyəvilik din və vicdan azadlığını dövlət tərəfindən təminat altına alır. Belə ki, o zaman həqiqi din azadlığı ancaq dünyəvi bir dövlətdə reallaşa bilər. Belə bir dövlətdə vətəndaşlar heç bir müdaxilə olmadan öz dinlərini seçə bilərlər. Dünyəvi bir dövlətdə din azadlığı, hər hansı bir dinə inanma və onun ibadətlərini yerinə yetirmə azadlığını təmin etdiyi kimi, vətəndaşların heç bir dinə inanmama və heç bir dinin ibadətlərini yerinə yetirməmə azadlığını da təmin edir. Dövlətin vətəndaşı ilə münasibəti dini və ideoloji deyil, ədalət çərçivəsində olmalıdır. Dövlətin əsas vəzifəsi, ədaləti, daxili və xarici təhlükəsizliyi təmin etmək, vətəndaşların haqq və azadlıqlarına əngəl olan problemləri aradan qaldırmaqdır. Bu səbəbdən də, dövlət bu gün ölkənin gələcəyi üçün lazım olan tədbiri görməkdədir. Yəni, vətəndaşlarını və cəmiyyəti zərərli, fanatik və radikal dini-siyasi qrup və təşkilatlardan qoruyur. Bu istiqamətdə dövlətin sekulyar dəyərləri və prinsipləri daha kəskin və aydın qoyulur.

Azərbaycanda din-dövlət, eyni zamanda cəmiyyət-dövlət münasibətləri milli-mənəvi dəyərlərlə yanaşı, həm də universal və multikultural dəyərlərə əsaslanan azərbaycançılıq ideologiyası kontekstində tənzimlənir. Bu baxımdan, cəmiyyətə sağlam təfəkkürlü vətəndaş qazandırmaq üçün dərin dini-fəlsəfi dünyagörüşünə, bədii-etik təfəkkürə və yüksək estetik zövqə malik olan insan yetişdirmək lazımdır. Belə ki, bu da dövlətin düşünülmüş, planlı və uzaqgörən siyasətinə əsaslanan proqramın tərtib olunmasına və onun həyata keçirilməsinə bağlıdır. İnanmaq lazımdır ki, əgər dövlət vətəndaşını və ölkənin gələcəyini düşünərək, bütün bunları sistemli şəkildə həyata keçirərsə, gələcəkdə cəmiyyətdə problem və təhlükə yaradan radikal, fanatik fərdlər ortaya çıxmaz. Əks-təqdirdə isə dini ehtiyac və tələblər qeyriləri tərəfindən təmin edilərsə, o zaman cəmiyyətdə daha da radikal, fanatik və cəmiyyət üçün təhlükə yaradan qüvvələr və fərdlər ortaya çıxa bilər.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev cəmiyyətdə dinin böyük rolu və yeri olduğunu öz çıxışında belə qeyd etmişdir: "Dinin cəmiyyət həyatında, xüsusən də gənclərin mənəvi-əxlaqi tərbiyəsində yeri və rolu düzgün istiqamətləndirilməli, mütərəqqi islami dəyərlərin tətbiqi və təşviqi müasir tələblər səviyyəsində aparılmalı, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməlidir. Bütün bunlar müasir mərhələdə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin, demokratik dünya birliyi ilə əməkdaşlıq münasibətlərinin prioritet xəttini təşkil edir. Ölkəmiz bu sahədə nüfuzlu beynəlxalq və regional təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatında uğurla fəaliyyət göstərir. Son illərdə MDB Dinlərarası Şurasının, MDB müsəlmanlarının Məşvərət Şurasının, Qafqaz xalqları Ali Dini Şurasının toplantılarının, xüsusən dünya dini liderlərinin sammitlərinin Bakıda keçirilməsi Azərbaycandakı dini sabitliyi, tolerantlıq mühitini, əqidə və ifadə azadlığını bütün dünyaya bir daha bariz şəkildə nümayiş etdirmişdir. Azərbaycan dövləti dinlərarası dialoqun dinamik inkişafına müsbət təsir göstərən bütün səyləri bundan sonra da dəstəkləyəcəkdir".

*Azərbaycanda islami dəyərlərin bərpası*

Respublikamızda dünyəvi dövlət şəraitində dövlət-din münasibətlərinin tənzimlənməsi, dini-mənəvi dəyərlərin pozitiv potensialından səmərəli və məqsədyönlü istifadə olunması ilə bağlı görülən böyük işlərin mahiyyətini düzgün başa düşmək üçün müstəqillik dövrünün ilk illərində ölkənin dini durumuna ani olsa da nəzər salmaq labüddür.

Milli müstəqilliyin ilk illərində Azərbaycan cəmiyyəti üçün həyatın bütün sahələrində olduğu kimi, din sahəsində də müəyyən pərakəndəlik səciyyəvi idi, 70 illik sovet rejimi dövründə insanların zehnindən dini sıxışdırıb çıxarmaq məqsədilə çox iş görülmüşdü. İfrat dərəcədə ideolojiləşdirilmiş stereotiplər bütövlükdə materialist dünyagörüşünə əsaslanan əxlaqi tərbiyə sistemi yaradılmasına yönəldilmişdi. Bu sistem insanlara öyrədirdi ki, "Allah yoxdur, din mövhumat və xürafatdan başqa bir şey deyildir, axirət inancı yanlış inancdır, ancaq dünya həyatı var və insan öləndən sonra hər şey bitir". Sovet dövründə yaşayıb-böyümüş insan bu vaxta qədər alışmış olduğu ictimai yönümünü itirdi - çaşıb qaldı, nə edəcəyini bilmədi. Bəzilərində bu hal daha kəskin xarakter aldı. Dini ideyaya maraq artmağa başladı. Həmin dövrdə vəziyyətdən sui-istifadə etmək istəyənlər də az olmadı. Ölkədə qeyri-ənənəvi dinləri yaymaq məqsədi güdən bir sıra xarici missioner təşkilatların fəaliyyəti geniş vüsət aldı. Erməni təcavüzü nəticəsində ölkə ərazisinin böyük bir hissəsinin işğal edilməsi, bir milyonluq qaçqın və köçkünlər ordusunun yaranması ilə bağlı sosial gərginlik şəraitində bu hal, həqiqətən, cəmiyyətimizin, xalqımızın gələcəyi, onun müasir millətlər toplusuna daxil olması yolunda ciddi əngəllər törədirdi. Din ölkədə müxtəlif siyasi qüvvələrin süni surətdə yaratdığı qarşıdurmaya cəlb edilir, ayrı-ayrı bölgələrdə özünü göstərən separatizm cəhdlərində ortaya atılan şüarlarda dindən siyasi məqsədlərlə istifadə etmək meyli, dini dözümsüzlük, ayrı-seçkilik əhval-ruhiyyəsi özünü büruzə verirdi. 1992-ci ildə tələsik, bölgədə dinin yayıldığı tarixi şəraiti tam nəzərə almadan hazırlanmış "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi də dini durumda dövlət nəzarətini təmin edib, köklü dəyişiklik yarada bilmədi. Əksinə, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, müxtəlif missioner təşkilatlar qanundan və xüsusilə orada olan boşluqlardan istifadə edərək insan haqları və azadlığı adı altında hətta milli təhlükəsizlik və ictimai asayiş tələblərinə cavab verməyən dini firqələrin ölkəmizə və millətimizə yad inancların yaymağa başladılar. Bir çox dini icma xaricdəki dini mərkəzlərin və missioner təşkilatların ölkədə təbliğçilərinə çevrilmişdi.

Ümummilli lider Heydər Əliyev xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdanda cəmiyyətin dinə bağlılıq durumu mürəkkəb və ziddiyyətli idi. Bu cür çətin şəraitdən yalnız yüksək dövlətçilik təcrübəsi olan bir şəxs baş çıxara, vəziyyəti düzgün qiymətləndirib dönüş yarada bilərdi. Yalnız ulu öndər Heydər Əliyev öz dərin biliyi, yüksək bacarığı, mətin iradəsi, böyük idarəçilik təcrübəsi, düzgün və uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərini inzibatçılığa yol vermədən, məqbul beynəlxalq standartlara müvafiq şəkildə öz təbii məcrasına qaytara bilər, dövlətin strateji xəttinə əsasən tənzim edə bilərdi. İlk növbədə din-dövlət münasibətlərində yaranmış uçurum aradan götürülməli, qarşılıqlı inam bərpa olunmalı, dövlətin antidin, ateist siyasəti yeritməməsinə insanları inandırmalı, dinin, həqiqətən də, milli-mənəvi dəyərlərdə yerini müəyyən etmək tələb olunurdu. Bu asan və tezliklə həyata keçirilməsi mümkün olan iş deyildi. Hər şeydən əvvəl vəziyyətdə köklü dəyişiklik yaratmaq üçün problemə münasibət bildirməklə yanaşı, qanuni zəmin hazırlamaq lazım idi. Bu məqsədlə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən dəyişikliklər edildi, bəzi maddələr ləğv, bəzisinə isə əlavələr edildi.

Bu gün Azərbaycan dini zəmində münaqişələrin olmaması insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması ümummilli lider Heydər Əliyevin dini sahədə balanslaşdırılmış siyasət yürütməsinin və həmin siyasətin bu gün davam etdirilməsinin nəticəsidir.

*Azərbaycan Respublikası multikulturalizm nümunəsidir*

Azərbaycan xalqı olduqca mühüm və bəşəriyyətə nümunə olan mənəvi keyfiyyətlərə malikdir. Bunlardan biri də əsrlərdən bəri formalaşaraq inkişaf edən, xalqımızın humanist dünyagörüşünü özündə əks etdirən multikultural və tolerant dəyərlərdir. Təsadüfi deyil ki, tarixin bütün dönəmlərində bu coğrafiyada müxtəlif etnoslar, xalqlar, ayrı-ayrı dinlərə sitayiş edən insanlar əmin-amanlıq, mehriban qonşuluq şəraitində yaşamışlar. Tarixin bütün dövrlərində dünyanın dəmək olar ki, hər bir tərəfində milli və dini zəminlərdə qarşıdurmalar baş vermiş, insanlığa, bəşəriyyətə qarşı ağır cinayətlər törədilmişdir. Lakin Azərbaycanda yaşayan xalqlar arasında heç vaxt milli-etnik və dini zəmində ədavət baş verməmiş, bu məqsədlə kənardan edilən cəhdlər iflasa uğramışdır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkəmizdə mədəniyyətlər və dinlərarası dialoq keyfiyyətcə yeni mərhələyə yüksəldildi, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə hüquqi zəmin yaradıldı. Ən əsası, bu, dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrildi. Ulu Öndərin müəllifi olduğu Azərbaycan Konstitusiyasında ölkəmizdə dinindən, irqindən, dilindən asılı olmayaraq hər bir vətəndaşın hüquq və azadlıqları, o cümlədən insanların etiqad azadlığı təsbit olundu. Respublikamızda yaşayan hər bir etnik azlığın, hər bir xalqın təmsilçilərinin mədəniyyətinin, dəyərlərinin müxtəlif qanunlar və normativ-hüquqi aktlarla təsbit edilməsi, mükəmməl qanunvericilik bazasının formalaşdırılması və digər bu kimi mühüm addımlar da aparılan bu məqsədyönlü siyasətin tərkib hissəsidir.

Din istənilən tarixi dövrdə hər bir cəmiyyətin əxlaqi-mənəvi dəyərlər sisteminin ayrılmaz bir hissəsini təşkil etmiş və insanlar tərəfindən doğru dərk edildiyi zaman bu dəyərlərin zəmanətinə çevrilmişdir. Azərbaycan üçün əsas mühüm xüsusiyyətlərdən biri isə ondan ibarətdir ki, bu ölkə bütün islam aləmində dünyəvi dövlətçiliyin nadir modellərindən biridir. Ölkədə xristian pravoslav kilsəsinin fəaliyyətinin bərpası, Bakıda katolik kilsəsinin inşa olunması Azərbaycandakı dini müxtəlifliyin və bu müxtəlifliyə insanların tolerant münasibətinin bariz nümunəsidir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında xalqımızın multikultural və dini-mənəvi dəyərlərinin qorunması, inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasət yeni mərhələdə onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Dövlət başçısı mütəmadi olaraq ölkəmizdə yaşayan xalqların, dini icmaların nümayəndələri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır, milli və dini bayramlarını təbrik edir. İlham Əliyev cənablarının Azərbaycan multikulturalizminin və tolerantlığının elmi əsaslarla öyrənilməsi, həmçinin dünyada təbliği istiqamətində göstərdiyi konkret hədəflərə çatmaq üçün atılan əməli addımlar öz bəhrəsini verməkdədir.

2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli" elan olunması bu sahəyə diqqəti daha da artırır və eyni zamanda, dünyanı alternativi olmayan multikulturalizm və tolerantlıq siyasətindən daha effektiv şəkildə faydalanmağa dəvət edir. 2016-cı ilin "Multikulturalizm İli" elan edilməsi multikulturalizm və tolerantlığın Azərbaycan xalqının həyat tərzi olması ilə yanaşı, dövlət siyasətində prioritet istiqamət olduğunun göstəricisidir.

Təəssüflə qeyd edək ki, xalqımızın tolerantlıq keyfiyyətindən sui-istifadə edən, dövlət səviyyəsində etnik təmizləmə və işğalçılıq siyasəti aparan Ermənistanın Azərbaycana qarşı təcavüzü davam edir. Bu təcavüzün qurbanları arasında tarixi-dini abidələrimiz, fərqli dini konfessiyaların və müxtəlif xalqların mənsubları da vardır. Azərbaycandakı dini konfessiyaların nümayəndələri Ermənistanın təcavüzkarlıq və etnik təmizləmə siyasətindən əl çəkməsi, qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum olmuş bir milyondan artıq Azərbaycan vətəndaşının öz yurd-yuvasına qayıtması tələbi ilə dəfələrlə beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə müraciət edib. Lakin işğalçı Ermənistan hələ də məkrli planlarından əl çəkmək istəmir. Bununla belə, dini konfessiyaların başçıları Azərbaycan xalqının sülh istəyini və dövlət başçısının apardığı sülhpərvər siyasəti təqdir edərək dəstəkləyir, onun uğurlu və müdrik siyasəti nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarının azad ediləcəyinə əmindir.

Dövlət, vətəndaşlarının dini-fəlsəfi dünyagörüşünün, bədii-etik təfəkkürün və estetik zövqün formalaşdırılması üçün düşünülmüş dövlət siyasəti həyata keçirir. Bu anlayış və konsepsiyaların ən mühümü multikulturalizmdir. Multikulturalizm bu gün, məhz Azərbaycanın dövlət siyasəti olaraq təyin edilmişdir. Hansı ki, mültikulturalliq bir ölkədə dini, cinsi, etnik və milli müxtəlifliklərin qorunması və inkişafına yönəlmiş siyasətdir.

**İdeoloji İş və**
**Mənəvi-Psixoloji**
**Təminat İdarəsi**

# Milli Qəhrəmanın xatirəsi anıldı



*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən zabitlərdən biri (ölümündən sonra) Səfiyar Behbudova həsr olunmuş xatirə tədbiri keçirildi. Tədbirdə Qeyri-Hökumət Təşkilatlarının əməkdaşları, Qarabağ müharibəsi veteranları, qaziləri, qəhrəmanın ailə üzvləri, döyüşçü yoldaşları, respublikamızın tanınmış incəsənət nümayəndələri və başqa şəxslər iştirak etdilər. Öncə qonaqlar Milli Qəhrəman Səfiyar Behbudovun keçdiyi qısa, lakin şərəfli ömür yoluna həsr olunmuş sərgi ilə yaxından tanış oldular.*

H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən Milli Qəhrəmanın anım tədbiri xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin səsləndirilməsi ilə başladı.

Xatirə tədbirində çıxış edən H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov Səfiyar Behbudovun şərəfli ömür yolundan, Qarabağ müharibəsi başladığı ilk günlərdən könüllü olaraq özünü müdafiə qüvvələrində düşmənlə mübarizədə göstərdiyi qəhrəmanlıq nümunələrindən danışaraq, xalqımızın belə mərd oğullarının xatirəsinin yaddaşlarda əbədi yaşayacağını vurğuladı.

Xatirə tədbiri qəhrəmanın həyat yolundan bəhs edən layihənin rəhbəri Şəmistan Əlizamanlı, rejissor və ssenari müəllifi İlham Tumas olan "Simurq ömrü" adlı sənədli video materialın nümayişi ilə davam etdi.

QHT sədri Samir Adıgözəlli çıxışında belə tədbirlərin və qəhrəmanlarımız haqqında çəkilən sənədli filmlərin gənc neslin hərbi vətənpərvərlik tərbiyəsindəki rolundan bəhs etdi. "Erməni separatizminin qarşısına əliyalın çıxan Vətən, torpaq sevdalı Səfiyar kimi oğullar özlərindən sonra böyük bir qəhrəmanlıq məktəbi yaratdılar. Mübarizin, Fəridin, Muradın, Samidin çıxdığı yol o yolun davamı kimi yaddaşlarımıza yazıldı. Onların hər birinin keçdiyi döyüş yolu qəhrəmanlıq dastanıdır. Xalqımız Vətən, torpaq uğrunda canından keçən belə qəhrəman oğullarını unutmur, onların adlarının əbədiləşdirilməsi istiqamətində daima böyük işlər görür".



Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının professoru, ehtiyatda olan 1-ci dərəcəli kapitan Nurulla Əliyev qəlbi Vətən sevgisi ilə döyünən, Vətən sevgisi ilə alovlanan və onun yolunda şəhid olan xalqımızın qəhrəman oğlu Səfiyar Behbudovun anım tədbirinə toplaşdığımızı dedi. "Kiçik leytenant Səfiyar Behbudov Vətənin dar günündə könüllü olaraq döyüşlərdə fəal iştirak edib. O, yüksək döyüş hazırlığına malik milli ordunun bir zabiti kimi düşmənlə qəhrəmancasına döyüşüb. Sənədli filmdə kadrları izlədikcə Qarabağ müharibəsinin birinci mərhələsində gedən döyüşlərlə bağlı cəbhə xatirələrimizi yada saldıq. Tərtər, Qubadlı, Laçın, Ağdam, Füzuli və digər istiqamətlərdə gedən döyüşlərdə şücaət göstərən Səfiyar kimi oğulların şərəfli ömrü Azərbaycan gəncliyinə nümunədir. Belə qəhrəmanların adları xalqımızın yaddaşında əbədi yaşayır və yaşayacaq."

Milli Qəhrəmanın bacısı Naibə Behbudova ailəsi adından çıxış edərək ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə, tədbirin keçirilməsində əməyi olan hər kəsə minnətdarlığını bildirdi.

Xatirə tədbirində çıxış edənlər İkinci Dünya müharibəsi veteranı İsmayıl Fərəcov, döyüşçü yoldaşı Gəray Əsədov, qəhrəmanın döyüş yolundan bəhs edən "Qürur dastanı" kitabının müəllifi yazıçı-publisist Azər Hacıbəyli və başqaları Səfiyar Behbudovun 25 illik şərəfli ömrünün daima qəlblərdə yaşayacağını, onun qisasının düşməndən alınacağı və torpaqlarımızın işğaldan azad olunacağı günün çox da uzaqda olmadığını bildirdilər.

Milli Qəhrəmanın xatirə tədbiri ədəbi-bədii kompozisiya, xalq mahnılarından, vətənpərvərlik ruhlu musiqilərdən və hərbi marşlardan ibarət konsert proqramı ilə sona çatdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Hərbi hissələrdə psixoloji işə dəstək tədbirləri davam etdirilir

*Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabit və dövlət qulluqçularından ibarət işçi qrupu tərəfindən birlik, birləşmə və hərbi hissələrdə gənc əsgərlərin yeni həyat şəraitinə uyğunlaşması, hərbi xidmətə adaptasiya olunması və mənəvi-psixoloji hazırlığı istiqamətində yerinə yetirilən psixoloji işə dəstək fəaliyyətləri həyata keçirilib.*




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşlərdə əsgərlər üçün yaradılan xidməti-məişət şəraiti öyrənilib, hərbi qulluqçularla maarifləndirici söhbətlər aparılıb, psixoloji testlər keçirilib və müvafiq tövsiyələr verilib.

Bundan əlavə birliklər və qoşun növlərində müvafiq kateqoriyadan olan zabit heyəti ilə ideoloji və psixoloji işin təşkili, hərbi qulluqçuların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi və digər mövzularda təlim-metodiki toplantılar da keçirilib.

# “Dünya ictimaiyyəti Ermənistanın düşmənçilik siyasətinə biganə yanaşmamalıdır”

Hər fürsətdə türkləri soyqırımı törətməkdə günahlandıran Ermənistanın bir qatilə ucaltdığı heykəldə türk generalı Tələt Paşanı təhqir etməsi qəbuledilməzdir. Bu, ermənilərin nə dərəcədə kinli olduğunu və bu kinin də yeni nəsillərə ötürüldüyünü göstərir. Ermənistan yürütdüyü bu düşmənçilik siyasətindən əl çəkməlidir. Dünya ictimaiyyəti buna biganə yanaşmamalıdır.

Bu fikirləri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində İstanbuldakı Türkiyə Azərbaycan Dərnəyinin (İSTAD) sədri Səfər Qaraqoyunlu bildirib.

Dərnək rəhbəri yüz il əvvəl öldürülən paşanın bu cür təhqir olunmasının türk xalqını dərindən kədərləndirdiyini qeyd edib. O deyib ki, illər əvvəl o coğrafiyanın 87 faizini türklər təşkil edirdi. Hazırda orada bir nəfər belə türk yoxdur. Halbuki Türkiyədə minlərlə türk vətəndaşı olmuş erməni var. Onlar orada sülh və əmin-amanlıq şəraitində yaşayırlar. İndi bunun hansının insanlığa daha çox yaraşdığını soruşmaq lazımdır.

Tarixi həqiqətlərlə üzləşmək istəməyən Ermənistanın təxribatçı hərəkətləri davam etdirdiyini bildirən S.Qaraqoyunlu deyib ki, bu ölkə bölgəyə sülh və sabitliyin gəlməsini istəyirsə, bu cür təxribatçı hərəkətlərdən əl çəkib işğal etdiyi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz tərk etməlidir.

# Uşaq evində “Gənclərimiz - parlaq gələcəyimizin təminatçısıdır” adlı tədbir keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi fəaliyyət planına uyğun olaraq, Şəki şəhərində qarışıq tipli uşaq evində uşaqların asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə "Gənclərimiz - parlaq gələcəyimizin təminatçısıdır" adlı tədbir keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə 2016-cı ilin Aprel döyüşlərinin qaziləri, cəbhə bölgəsində yerləşən hərbi hissənin və Şəki şəhər İcra Hakimiyyətinin nümayəndələri, eləcə də Füzuli Dövlət Dram Teatrının kollektivi iştirak ediblər.

Çıxış edənlər körpələrə və kimsəsiz uşaqlara göstərilən yüksək qayğının daim böyük rəğbətlə qarşılandığını və ölkəmizdə prioritet məsələ sayıldığını vurğulayıblar.

Görüşün sonunda uşaqlara müxtəlif növ geyim dəstləri və yeni dərs ilinin başlaması ilə əlaqədar məktəbli ləvazimatları təqdim olunub.

Tədbirdə Füzuli Dövlət Dram Teatrının kollektivi tərəfindən göstərilən müxtəlif səhnəciklər və konsert proqramı maraqla izlənilib.

AZƏRBAYCAN ORDUSU

# Hərbi Dəniz Qüvvələrində "Konflikt jurnalistikası məktəbi"nin auditoriya təlimi keçirildi



*Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin təşkil etdiyi "Konflikt jurnalistikası məktəbi" adlı birgə layihənin Hərbi Dəniz Qüvvələrində növbəti auditoriya təlimi keçirildi.*

Təlimdə çıxış edən zabitlər Hərbi Dəniz Qüvvələrinin yaranma tarixi, hərbi gəmilərdə rabitə və radiotexniki vasitələrdən istifadə qaydaları, suüstü və sualtı müşahidə sistemləri, dəniz təhlükəsizliyi və cavabdehlik zonası, döyüş gəmiləri haqqında məlumat verdilər. Həmçinin təlim alanlara Hərbi Dəniz Qüvvələrinin komanda məntəqəsi haqqında da məlumat verildi. Bildirildi ki, bu məntəqə Hərbi Dəniz Qüvvələrinin idarə olunmasını həyata keçirir. Bunlarla yanaşı, suüstü şərait haqqında operativ informasiyaların Hərbi Dəniz Qüvvələrinə məxsus sahil və ada radiotexniki postlarda yerləşən radiolokasiya stansiyaları vasitəsilə alınaraq, real vaxt rejimində monitorlarda əks olunduğu haqqında məlumat iştirakçıların diqqətinə çatdırıldı.

Layihə iştirakçıları hərbi gəmilərin fəaliyyət istiqaməti, şəxsi heyəti, döyüş qabiliyyəti və davamlılığı haqqında ətraflı məlumat aldıqdan sonra, dənizçilərin sosial-məişət şəraiti, gündəlik iş rejimi və nizam-intizam qaydaları ilə tanış oldular.

Hərbi gəmilərlə tanışlıq başa çatdıqdan sonra layihə iştirakçıları şəxsi heyətlə birgə nahar etdilər.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində "itən" müxtəlif silahların sonradan cinayətkar dəstələrin və terrorçuların əlinə keçməsi artıq adi hala çevrilib. Bu günlərdə düşmən bölmələrinin birində daha bir avtomat silahının itməsi faktı aşkar edilib.

Silahın itməsi ilə bağlı araşdırmaya hərbi polislə birgə xüsusi şöbənin əməkdaşları da qoşulub. Məhz bundan sonra silah itən bölmədə xidmət edən hərbi qulluqçuların əsl problemləri başlayıb.

Xüsusi şöbənin əməkdaşları bölmənin hərbi qulluqçularını dilə tutaraq, özləri əvvəlcədən hazırladıqları izahatları imzalatdırmağa nail olublar. Hərbi qulluqçular "Osobistlər" tərəfindən şantaj edildikdə isə aldandıqlarını anlayıblar, lakin artıq gec olub.

Saxta izahatları imzalayan hərbi qulluqçular Sasun Hayrapetyana (Xankəndi) və Edqar Xanağyana (Tavuş HK) külli miqdarda rüşvət müqabilində izahatlarını dəyişməyə icazə veriləcəyi bildirilib.

Silahın itmə faktı ilə bağlı araşdırma davam edir.

**Hazırladı:
İsa ELDAROĞLU**

*Nümunəvi xidmət*

# Texnikalarımız daim səfərə hazırdır

- Nəqliyyat vasitəsini idarə etmək böyük məsuliyyət tələb edir. Avtomobili yaxşı idarə etmək və digər nəqliyyat vasitələrinə narahatçılıq verməmək üçün yol hərəkəti qaydalarını yaxşı bilmək vacibdir. Hərbi texnikalarımız ağır olduğu üçün onu idarə edərkən xüsusilə diqqətli olmaq lazımdır. Təlimlər zamanı şəxsi heyəti poliqona aparmaq, ağır və mürəkkəb hərbi texnikanı idarə etmək yüksək dərəcədə bacarıq tələb edir. Çünki onu təkcə asfalt yolda deyil, nahamar, dağlıq, dərəlik ərazilərdə ekstremal şəraitdə idarə etməli olursan. Hər an həyəcan siqnalı ilə istənilən istiqamətlərə getmək tapşırığı ala bilərik. Verilən tapşırığın öhdəsindən layiqincə gəlmək, təyin olunmuş toplantı məntəqəsinə vaxtında çatmaq üçün texnikalar və avtomobillər daim saz vəziyyətdə olmalıdır. Bizlərə təhkim olunan texnikalara daim texniki qulluq göstəririk. Texnikaları təmiz saxlamaq onların ömrünü uzadır, çatışmazlıqların aradan qaldırılması isə daim səfərə hazır vəziyyətdə olmasını təmin edir. Bu səbəbdən ordu sıralarında sürücü kimi də xidmət etmək həm məsuliyyətli, həm də şərəflidir, - bu sozləri ön xətt bölmələrinin birində xidmət edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Kamil İbrahimov dedi.



Kamillə hərbi hissənin parkında tanış olduq. Bizi müşayiət edən mayor Nemət Rəhimov sürücümüzün nümunəvi xidmət edən hərbçilərin sırasında olduğunu, hər zaman avtomobilinə qulluq göstərdiyini bildirdi. Öyrənirik ki, gənc yaşlarında formaya olan məhəbbəti, torpaqlarımızın düşmən tapdağı altında olması onu ordu sıralarına yenidən qayıtmağa ruhlandırıb. "Uşaq vaxtlarımdan hərbi xidmətə həvəsim böyük idi. Doğulub boya-başa çatdığım rayonda hərbi hissələrimizdən biri yerləşirdi. Axşam vaxtları əsgərlərimizin oxuduqları vətənpərvər mahnılara qulaq asırdım. Fikirləşirdim ki, vaxt gələcək mən də Vətənin keşikçilərinin sıralarına daxil olacam. Hərbi xidmətə çağırış vərəqəsi gələndə çox qürurlandım, çünki mən uşaqlıqdan arzusunda olduğum məqsədimə çatmışdım. Mən də torpaqlarımızı düşməndən qoruyacam. Bu gün isə oğlumun mənim yolumu davam etdirməsini istəyirəm. Əminəm ki, işğal altında olan dilbər guşələrimizi azad etdikdən sonra, böyüməkdə olan oğullarımız Azərbaycanın dünya dövlətləri tərəfindən tanınan sərhədləri çərçivəsində xidmət edəcəklər".

Vaxt yetişir, baş çavuş Kamil İbrahimovla söhbətimizi bitirərək sağollaşırıq. Onun avtomobilinə xüsusi sevgi ilə texniki qulluq göstərdiyinin şahidi oldum. Ümid edirəm ki, tezliklə Böyük Qələbənin əldə olunmasında xüsusi qəhrəmanlıq göstərən hərbi qulluqçuların adı çəkiləndə Kamilin adını da eşidəcəyik. Sürücümüzdən gələn görüşlərimizin Laçında, Kəlbəcərdə baş tutması arzusu ilə ayrılırıq.

**Baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu",
foto
C.CƏFƏROVUNDUR**

# Naxçıvan Qarnizonundan xəbərlər

## Naxçıvan Qarnizonu qoşunlarında komanda-qərargah təlimi başlayıb



Naxçıvan Qarnizonu qoşunlarında ərazidə ikitərəfli üçpilləli komanda-qərargah təlimi başlayıb.

Təlimin birinci mərhələsində qoşunların müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilməsi üçün praktiki fəaliyyətlərə cəlb edilmiş birləşmə və hissələr təlim-döyüş həyəcan siqnalı ilə qaldırılaraq təlim rayonlarına çıxarılıb.

"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən keçirilən komanda-qərargah təlimi sentyabrın 14-dək davam edəcək.

## Əlahiddə Ümumqoşun Orduda yarış keçirilib



Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı və kəşfiyyat bölmələri arasında "Ən yaxşı kəşfiyyatçı-istehkamçı" və "Ən yaxşı kəşfiyyatçı-qumbaraatan" adı uğrunda yarış keçirilib.

Əvvəlcə yarış iştirakçılarının nəzəri bilikləri test üsulu ilə yoxlanılıb, hərbi topoqrafiyadan normativlər qəbul olunub.

Sonra mühəndis hazırlığından kəşfiyyatçı-istehkamçılar minaların qurulması, mina sahələrinin aşkar olunması və keçidin açılması, minaaxtaranın işə salınması və istifadə qaydaları, ağac konstruksiyalı elementin hesabatının aparılaraq partladılması üsullarını praktiki yerinə yetiriblər.

Ən yaxşı kəşfiyyatçı-qumbaraatan adını qazanmaq üçün əsgərlər qumbaraatanlardan praktiki atışları icra ediblər. Yarışın əsas mərhələsindən sonra fiziki hazırlıqdan normativlər götürülüb.

Sonda qaliblər Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən mükafatlandırılıblar.

## Naxçıvan Qarnizonunda əsgərlərin gəzintisi təşkil olunub



Həftə ərzində döyüş və ictimai-siyasi hazırlıqda yüksək nəticələr qazanmış əsgərlərin Naxçıvanın tarixi yerlərinə və muzeylərinə gəzintisi təşkil olunub.

Nümunəvi xidmətlərinə görə fərqlənən əsgərlər Heydər Əliyev və Dövlət Bayrağı Muzeylərini ziyarət ediblər. Tarixi eksponatlarla yaxından tanış olan əsgərlərimiz Ulu Öndərimizə, bayrağımıza, dövlətimizə, dövlətçiliyimizə olan sonsuz sevgilərini ifadə edir, Vətənimizin müdafiəsində ayıq-sayıq dayanırlar.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**


| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Günay TAĞIYEVA | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.<br>Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 556<br>Nüsxə 3950 |